**UOT 792.03**

**HƏBİBƏ ALLAHVERDİYEVA*,**
**İNCİ QULİYEVA***

# BƏHRUZ BƏY KƏNGƏRLİ YARADICILIĞINDA NATÜRMORT MÜSTƏQİL JANR KİMİ

*Bəhruz Kəngərlinin yaratdığı əsərlər təsviri incəsənətimizdə realist dəzgah boyakarlığının yaranması, portret, mənzərə və natürmort janrlarının müstəqil janr kimi formalaşması istiqamətində əvəzsiz rol oynayır. Onun yaradıcılığı Azərbaycan təsviri sənətində tamamilə yeni məktəbin təşəkkülünə özünəməxsus dəst xətti ilə müstəsna rol oynamış, sənət tarixində silinməz iz qoymuşdur. Onun yaradıcılığında natürmort janrında çəkdiyi əsərləri maddi mədəniyyət nümunələrimizə olan sevginin real və estetik göstəricisidir.*

**Açar sözlər:** *Bəhruz bəy Kəngərli, rəssam, rəsm əsəri, natürmort, janr*

Təsviri incəsənətin böyük bir sahəsini natürmort janrı tutur. Bu janrda cansız predmetlər, insan əli ilə yaradılmış əşyalar, əmək alətləri, məişət avadanlığı, meyvələr, tərəvəz, quş və heyvan müqəvvaları və s. rəmzi məna kəsb edərək rəssamlıq əsərlərində əhəmiyyətli yer tutmuşdur. İnsan həmişə gözəllik vurğunu olmuş, özünü həyatda, məişətdə zərif, nadir, faydalı və gözəl əşyalarla əhatə etməyə meyl etmişlər. Belə əşyalar estetik zövqü formalaşdıran, təkmilləşdirən mühüm vasitə sayılır. İnsanın hiss və duyğularına təsir edən, onu düşündürən, göz oxşayan predmetlər aləmi natürmort əsərlərinin mühüm mövzusunu təşkil edir. Təsadüfi deyil ki, müxtəlif dövrlərdə yaranmış rəssamlıq əsərlərində natürmort nümüunələrinə tez-tez rast gəlirik.

Azərbaycan rəssamlığı tarixində müxtəlif təsviri sənət əsərlərində sərbəst və ya köməkçi element şəklində natürmort təsvirlərinə rast gəlmək olur. Məsələn, qədim miniatüralarda müəyyən bir hadisəni təsvir edən kompozisiyada çox zaman şərti çəkilmiş məişət əşyalarının təsvirini görmək olur. Belə təsvirlərdə minatüraçı rəssamlara təsvir etdikləri məkan haqqında geniş təssəvvür yaratmağa imkan verir.

Lakin Bəhruz bəy Kəngərli Azərbaycan təsviri incəsənət tarixində ilk rəssamdır ki, müasir natürmort janrı sahəsində ardıcıl olaraq işləmş, bu janrın realist istiqamətdə inkişaf etməsi üçün çalışmışdır. Bir sözlə Azərbaycan təsviri sənətində realizmin banisi, rəssamlıq təhsili görmüş ilk peşəkar rəssam Bəhruz bəy Kəngərlinin yaradıcılığında natürmort janrını müstəqil bir janr səviyyəsinə qalxdığını görürük.

Ümummilli lider Heydər Əliyev B.Kəngərli haqqında belə demişdir: "Bəhruz Kəngərli nadir istedada malik bir insandır. O, Azərbaycan xalqının professional rəssamlıq sənətində ilk rəssamdır". Realist rəssam yaradıcılığının ilk mərhələlərində portret, karikatura və satirik rəsmlər, təbiət və məişət səhnələrini özündə əks etdirən rəsm, akvarel və boyakarlıq əsərləri yaratmışdır. Onun yaradıcılığı yeddi ili əhatə etməsinə baxmayaraq, 2000 yaxın sənət nümunələri yaratmış, təəssüf olsun ki, günümüzə onlardan 500-ə qədəri gəlib çatmışdır. O, rənglərin ahəngindən, cizgilərin formalarından məharətlə istifadə edərək, təsviri sənət aləminə bənzərsiz, əsrarəngiz əsərlər bəxş etmişdir. Qısa ömründə əbədiyaşar əsərlərə həyat verən, incəsənət tarix-imizin unudulmayan nümayəndəsinə çevrilən Bəhruz Kəngərli dövrünün müasiri kimi gələcək nəsillərə örnək olmuşdur. Onun rənglər dünyası özünün sirli-sehrli pərdəsini hələ də saxlamaqdadır. Bəhruz bəy Kəngərli yaradıcılığında portret və mənzərə rəsmlərinə üstünlük versə də, natürmort janrından da yan keçməyib. Aparılan tədqiqatlar zamanı onun yaradıcılığında natürmort janrına məxsus 338 rəsm və eskizdən təəssüflər olsun ki, bizim dövrə gəlib çatmış natürmortları çox azdır. Əsasən tələbəlik illərində çəkdiyi natürmortları bizim dövrə gəlib

çıxmayıb. Yaradıcılığının Naxçıvanda baş tutan dövründən cəmi beş natürmort qalıb: "Qızıl güllər" (1916-cı il), "Mavi rəngli dolça" (1921-ci il), "Çıraq" (1921-ci il), "Naxışlı mis cam" (1921-ci il), "Mürəkkəbqabı" (1921-ci il).

"Bu əsərlərdə Bəhruz əşyanın fakturası, forma və rənginin kağız üzərində verilmə üsulunu təkmilləşdirmək məqsədilə işləsə də, onlar da təsviri sənət tariximizdə xüsusi dəyəri olan və Azərbaycan dəzgah rəngkarlığında natürmort janrının ilk nümunələri sayılır"(3. 47).

Bu əsərlərdə rəssam maddi mədəniyyət nümunələrinə xas olan etnikçilik, tarixilik daha qabarıqdır. Bundan əlavə gül-çiçəklərin daşıdığı gözəllik mənbələriniüzə çıxarmaq, estetik baxımdan əsrarəngiz gözəlliklərin natürmort janrının tələbləri çərçivəsində realist janrda, özünəməxsus yaratmşdır.

Rəssamın faner üzərində 1916-cı ildə işlədiyi "Qızıl güllər" əsərini Bəhruz digər əsərləri kimi kiçik ölçüdə işləmişdir (şəkil 1). Yağlı boya ilə çəkdiyi bu əsərdə şaquli kompozisiyada yerləşdirilmiş qızılgül dəstələrini görürük. Ağ və qırmızı qızılgüllərin tünd rəngli yarpaqları yaşıla çalan boz rəngli fonda verən rəssam klassik natürmort tutumunu verə bilib.

Əşyalara bir qayda olaraq kompozisiyanın əsas məna-məzmun daşıyıcısı kimi təqdim olunmaqla, həm də madii-mədəniyyət nümunələrinə gözəllik qaynağı kimi baxan rəssamın onlara sevgisi ifadə olunmuşdu. Onun sulu boya ilə çəkilmiş digər dörd əsərində də müxtəlif məişət əşyaları təsvir olunmuşdu. Lakin hər əsərdə yalnız bir əşya realist təsvir olunmuşdur.



*Şək.1. "Qızıl güllər"*

Ömrünün son illərində natürmort janrına müraciət etməsini belə güman etmək olar ki, həmin vaxtlarda xəstəliyini yaşayan rəssaminsanlarla ünsiyyətdən çox, əşyalar aləmi ilə təmasa üstünlük vermişdir.

Bəhruz Kəngərli natürmort janrına məxsus əsərləri maddi mədəniyyət nümunələri kimi hal-hazırda Azərbaycan Milli İncəsənət Muzeyində saxlanılır.



*Şək. 2. "Naxışlı mis cam"*



*Şək.3. "Mürəkkəb qabı"*

Rəsm əsərlərinin hər birində ətraf mühitdən təcrid olunmuş əşyanın iri planda çəkilməsi bu əsərlərdə əşyalar barəsində tamaşaçıya daha zəngin və maraqlı təəssürat oyatmaq rəssamın ən ümdə vəzifəsi olub. Bütün bunları rəssamın əşyalar üçün seçdiyi tünd və işıqlı fonda datəsdiqləyir. Çəkilən əşyaların zahiri görkəmi onların qədimiliyindən xəbər verməsinə rəğmən, bu nümunələr rəssamın gözündə bir gözəllik qaynağı kimi təsvir edilib.

Rəssamın gözü ilə bu əsərlərə baxdıqda bədii tutumu kifayət qədər cəlbedici və duyğulandırıcı hisslər təqdim olunur. Rəssam fırçasıyla bu obyektlərə başqa baxış, özünəməxsus forma-biçiminin aşıladığı gözəllik mənbələrinin tamaşaçı tərəfindən duyulmasına kömək etmiş olmuşdur. Hər bir kompozisiyanın mərkəzində tünd fondda canlı və işıqlı əşyanın parça üzərində görüntüsü, əşyaların matereallığının təbiliyi kifayət qədər cəlbedici və maraq kəsb edir. Maddi mədəniyyət nümunələrimizə verilən dəyərin realist təsvirini Kəngərli yaradıcılığında fərqli bir formada, suluboya texnikasının təmiz, saf xüsusiyyətləri ilə rəssamın özünəməxsusluğu və realist üslubun həmahəngliyinin şahidi oluruq.



*Şək. 4. "Mavi rəngli dolça"*



*Şək. 5."Çıraq"*

Bəhruz bəy Kəngərlinin digər janrlara nisbətən sayca az olan natürmortlarında rəssam özünə məxsusluğunu biruzə verən bədii, eyni zamanda estetik məziyyətlər, vurğular mövcuddur.

Rəssam əşyaları bir qayda olaraq kompozisiyanın əsas məna daşıyıcısı kimi təqdim etməklə, maddi mədəniyyət nümunələrinə gözəllik mənbəyi kimi onun sevgisi, baxışı, hətta hissləri də ifadə olunmuşdur. Hətta, rəssamın natürmort janrına məxsus əsərləri onun zəngin yaradıcılığına özünəməxusluq və rəngarənglik bəxş etmişdir. "Odur ki, rəssamın bu bədii irsi sayca az olmasına baxmayaraq onun zəngin yaradıcılığına özünəməxsusluq və rəngarənglik bəxş edən əsərlər kimi qəbul olunurlar...(1, 177)"

Sənətkar təsviri sənətin müxtəlif janrlarında özünü təsdiqləməyə nail olmuşdur. Bəhruz bəy Kəngərli yaradıcılığı boyu ərsəyə gətirdiyi rəsm əsərlərində kompozisiyalara daha ətralı məna-məzmun tutumu verməyə çalışmış, təsviri sənət dünyasına özünün fırçasıyla yeni rənglər, koloritlik bəxş etmişdir. Bəhruz Kəngərli cəmiyyətə faydalı olmaq, dövrün mədəni həyatına müsbət təsir etmək, gənclərin zövqünü düzgün istiqamətləndirmək naminə öz əsərlərini özündən sonrakı nəsilə əyani təqdim etmişdir.

## ƏDƏBİYYAT

1. Əliyev Ziyadxan, Alıyev Nizami. Bəhruz bəy Kəngərli taleyi. Naxçıvan, "Əcəmi" Nəşriyyat-Poliqraiya Birliyi, 2017. 512 səh.
2. Bəhruz Kəngərli. Bakı: Çaşıoğlu. 2005, 80 s
3. Bəhruz Kəngərli.Sərvət. Bakı. 2013,104 s
4. "Otuz illik həyatın ömür tablosu" metodik vəsait /tərt.ed.N.Məcidova; ix. red. və burax. məsul Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası. Bakı: 2017, 26s.

**** Naxçıvan Müəllimlər İnstitutu***
***sənətşünaslıq üzrə fəlsəfə doktoru***
***E-mail: habibe.allahverdiyeva@mail.ru***
****Naxçıvan Dövlət Universitetinin***
***magistri***
***E-mail:khuliyevainci@mail.ru***

**Habiba Allahverdiyeva, Inji Guliyeva**

## IN THE WORKS OF BAHRUZ KANGARLI, STILL LIFE AS AN INDEPENDENT GENRE

Bahruz Kangarli presented his works to the youth in order to be useful to the society, to have a positive impact on the cultural life of the time, to direct the tastes of the youth. In our fine arts, the artist's works play an irreplaceable role in the emergence of realist bench painting, the formation of the genres of portrait, landscape and still life as an independent genre. His still lifes made an exceptional contribution to the formation of a completely new school in the visual arts of Azerbaijan with their unique predetermined line and left an indelible mark on the history of art.

**Keywords:** *Bahruz Kangarli, artist, painting, still life, genre.*

**Габиба Аллахвердиева, Инджи Гулиева**

## НАТЮРМОРТ КАК САМОСТОЯТЕЛЬНЫЙ ЖАНР В ТВОРЧЕСТВЕ БАХРУЗА БЕК КЕНГЕРЛИ

Бахруз Кенгерли представил свои работы молодежи, чтобы они были полезны обществу, положительно влияли на культурную жизнь того времени направляли вкусы В нашем изобразительном искусстве произведения художника играют незаменимую роль в возникновении реалистической скамейки, становлении жанров портрета, пейзажа и натюрморта как самостоятельного жанра. Его натюрморты внесли исключительный вклад в формирование совершенно новой школы в изобразительном искусстве Азербайджана со своей уникальной заданной линией и оставили неизгладимый след в истории искусства.

**Ключевые слова:** *Бахруза бек Кенгерли, художник, картина, натюрморт, жанр.*

*(AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə tərəfindən təqdim edilmişdir)*

**Daxilolma: İlkin variant 5.01.2021**
**Son variant 22.01.2021**